# Azərbaycan Demokratik Respublikası və müasir dövrdə məhkəmələr

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Dövlət hakimiyyəti üç qoldan ibarət idi: Azərbaycan parlamenti, Hökumət, məhkəmə hakimiyyəti. Dövlət Parlamentin qəbul etdiyi qanun və qərarlar əsasında idarə olunurdu. Parlamentdə Azərbaycan ərazisində yaşayan bütün xalqlar, o cümlədən sayları çox az olan xalqlar da öz deputatları ilə təmsil olunmuşdular. İcra hakimiyyəti Hökumətə məxsus idi. Hökumət Parlament qarşısında cavabdeh idi. AXC Hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Paris Sülh Konfransının qərarına əsasən müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlamışdı. AXC müstəqil məhkəmə sisteminin yaradılması sahəsində də mühüm tədbirlər həyata keçirmişdi.

1918-ci ilin 28 mayında Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsi ilə müstəqil Azərbaycan Demokratik Respublikasının yarandığını elan etdikdən sonra, elə həmin gün Azərbaycan Demokratik Cümhuriyyətinin Ədliyyə Nazirliyi yaradıldı və Xəlilbəy Hacıbaba oğlu Xasməmmədov ilk ədliyyə naziri oldu.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti özünün 26 dekabr 1918-ci il tarixli iclasında hökumətin ədliyyə sahəsində deklarasiyasını qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ədalət mühakiməsinin yalnız məhkəmələr tərəfindən həyata keçirilməsini, təqsirsizlik prezumpsiyası, məhkəmələrin xalqa daha yaxın olması, vətəndaşların məhkəmə və qanun qarşısında bərabərliyi və digər demokratik prinsiplərə əsaslanan məhkəmə sistemi qurulmasını elan etmişdir. Bundan sonra Azərbaycan Demokratik Cümhuriyyətinin ilk ədliyyə naziri Xəlilbəy Xasməmmədovun məruzəsi əsasında Azərbaycan Demokratik Cümhuriyyəti hökumətinin 14 noyabr 1918-ci il tarixli qərarı ilə Azərbaycan tarixində ilk dəfə olaraq "Azərbaycan məhkəmə palatası və onun əsasnaməsi" təsdiq olunmuşdur.

Bakı şəhərində yerləşən məhkəmə palatası bir neçə şöbədən ibarət idi.

Əsasnamə aşağıdakıları nəzərdə tuturdu:

—Məhkəmə Palatasının hər bir şöbəsi sədr və ştat üzrə müəyyən adamlardan ibarət olur.

—Məhkəmə Palatasının sədrlərindən biri böyük sədr təyin edilir.

—Azərbaycan Məhkəmə Palatası tərkibindəki prokuror və müəyyən qədər prokurorun yoldaşlarından ibarətdir.

—Azərbaycan Məhkəmə Palatasının idarə forması və onun nəzdində olan prokuror nəzarəti rus imperiyasının 1864-cü il və 1917-ci il müvəqqəti hökumətin qanunlaşdırılmış məhkəmə nizamnaməsində nəzərdə tutulanlarla müəyyənləşdirilir.

—Azərbaycan Məhkəmə Palatasının hakimiyyəti və onun nəzdində yerləşən prokuror nəzarəti bütün Azərbaycan Respublikası ərazisində həyata keçirilir.

Göründüyü kimi, əsasnaməyə uyğun olaraq yaradılmış Azərbaycan Məhkəmə Palatasının səlahiyyət dairəsi bütün Azərbaycan ərazisini əhatə edirdi. Həm də nəzərdə tutulurdu ki, respublika ərazisində mərhələ ilə digər məhkəmə instansiyaları - məhkəmə palataları təsis edilsin. Əsasnamədən əvvəl Azərbaycan Respublikasında hüquq qaydaları və qanunçuluğun möhkəmləndirilməsi məqsədilə Bakı və Gəncə şəhərlərində əvvəllər mövcud olmuş dairə məhkəmələrinin, həmçinin həmin dairə məhkəmələri nəzdində barışdırıcı idarələrin fəaliyyəti bərpa edilmişdi.

Azərbaycan Demokratik Cümhuriyyəti ədliyyə naziri Xəlilbəy Xasməmmədovun "Məhkəmə idarələrinin bərpa olunması haqqında" etdiyi məruzəsi əsasında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qəbul etdiyi 1 oktyabr 1918-ci il tarixli qərarda deyilirdi ki, Bakı quberniyasında qanun-qaydaların bərpa olunması və qanuni hökumətin Bakı şəhərinə köçürülməsi ilə əlaqədar olaraq anarxiya dövründə müxtəlif adlarla yaradılmış məhkəmələr və məhkəmə funksiyasına malik bütün komissiyalar ləğv edilsin. Bakı dairə məhkəməsinin və onun tabeliyində olan bütün idarələrin fəaliyyəti bərpa olunsun. Azərbaycan Məhkəmə Palatasında dairə məhkəmələrində baxılmış işlərdən əlavə, respublika ərazisində baş vermiş və Tiflis məhkəmə palatasına daxil olmuş, lakin baxılmamış və baxılmaq üçün Bakıya göndərilmiş işlərə də baxılması nəzərdə tutulurdu. Bu cəhətdən Azərbaycan Məhkəmə Palatası yuxarı məhkəmə instansiyası orqanı hesab olunurdu.

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra ötən dövr ərzində ölkənin məhkəmə sistemində əsaslı islahatlar aparılmışdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl məhkəmə hüquq islahatı nəticəsində ölkənin bütün hüquq sistemində köklü dəyişikliklər həyata keçirilmiş, qısa müddət ərzində yeni mütərəqqi qanunlar qəbul edilmiş, 3 pilləli yeni məhkəmə sistemi yaradılmışdır. Yeni məhkəmə sisteminin fəaliyyətə başlaması üçün hakimlərin şəffaf prosedur əsasında, beynəlxalq tələblərə uyğun test üsulu ilə imtahan və müsahibə ilə seçilməsi qərara alınmış, Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin göstərilən tələblər səviyyəsində seçilməsi təmin edilmişdir. Seçilmiş şəxslərin sırasından müxtəlif təbəqələrin nümayəndələri geniş təmsil olunmuş, nəticə etibarilə ölkədə müstəqil məhkəmə hakimiyyətinin yaradılması istiqamətində mühüm addım atılmışdır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ardıcıl surətdə aparılan məhkəmə islahatının əsas məqsədi ölkəmizdə qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət mexanizmində nüfuzlu və müstəqil bir təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi, cinayət və mülki mühakimədə demokratik prinsiplərin həyata keçirilməsi, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətinin şəffaflığının təmin edilməsi və sair məsələlərin konseptual həlli olmuşdur.

Həmin uğurlu siyasətin nəticəsi kimi bu gün hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq, məhkəmə hakimiyyəti müstəqildir və o, hakimiyyətin başqa qollarından asılılığı olmadan həyata keçirilir.

Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir. Məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.

Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər. Məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələrlə həyata keçirilir. Cinayət məhkəmə icraatında Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.

Azərbaycan Respublikası 2001-ci ildən İnsan Hüquqları üzrə Konvensiyaya qoşulub. Konvensiyanın 46-cı maddəsinə müvafiq olaraq, Avropa Məhkəməsinin Azərbaycana münasibətdə qəbul edəcəyi qərarlar qəti olmaqla, bütün dövlət orqanları, o cümlədən məhkəmələr üçün məcburidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 yanvar 2006-cı il tarixli fərmanı ilə ölkəmizdə öyrənilməsi və tətbiqinə başlamış presedent hüququ ötən son illər ərzində öz tərəqqisini tapmışdır. Bunun üçün qısa müddət ərzində lazımi tədbirlər görülmüş və ən başlıcası Azərbaycan Respublikası Ali Məhkəməsinin Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" qərarı bu işin ardıcıl və keyfiyyət aparılmasına geniş imkanlar açmışdır. Odur ki, Ali Məhkəmənin Prezident fərmanının icrası ilə bağlı bu qərarı əhəmiyyətli və vaxtında qəbul edilmiş qərar kimi qiymətləndirilir. Çünki pozulmuş hüquqların bərpası sonda məhkəmələrdə bərpa olunur, odur ki, məhz məhkəmələr tərəfindən presedentlərin öyrənilməsi zəruri hesab edilmişdir.

Bundan başqa, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezidentin bilavasitə rəhbərliyi ilə davam etdirilən məhkəmə islahatları çərçivəsində əhaliyə səmərəli xidmət göstərilməsinə və vətəndaş məmnunluğunun artırılmasına xüsusi önəm verilir. Bu baxımdan məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən köklü islahatlar çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müxtəlif texnoloji yeniliklərin tətbiqi mühüm əhəmiyyət kəsb edir. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncam isə bu sahədə strateji prioritetləri müəyyən etməklə inqilabi təkamülün əsasını qoymuşdur. Belə ki, "Elektron məhkəmə" informasiya sisteminin yaradılması məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində şəffaflıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və sənəd dövriyyəsinin operativ təmin olunmasına xidmət edəcəkdir.

**Mahir ƏSƏDLİ,**
**Şəki Apellyasiya Məhkəməsinin hakimi.**